QANUN № 02 (352), 2024, s. 105-109

**Hüseynov Qardaş Sayadxan oğlu,**
Bakı Dövlət Universitetinin Kriminalistika və məhkəmə ekspertizası kafedrasının dosenti
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: aynurhuseynova8888@gmail.com

**UOT 343.98.064**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.28**

# İQTİSADİ CİNAYƏTLƏRİN AŞKAR EDİLMƏSİNDƏ İQTİSADİ TƏHLİLİN STEREOTİPLƏR METODUNDAN İSTİFADƏ EDİLMƏSİ

***Açar sözlər:*** *iqtisadi təhlil, stereotiplər metodu, inventarlaşma, əmtəəsiz məxaric, iqtisadi cinayətlər, çatışmazlıq.*

***Ключевые слова****: экономический анализ, метод стереотипов, инвентаризация, безтоварный расход, экономические преступления, недостача.*

***Keywords:*** *economic analysis, stereoips method, inventory, non-commodity consumption, economic crimes, shortages.*

İqtisadi cinayətləri aşkar etmək məqsədilə aparılan iqtisadi göstəricilərin əsas tədqiqat üsullarından biri də iqtisadi təhlilin stereotiplər metodudur. Cinayət hadisəsi nəticəsində pozulan əlaqələrin aşkarlanmasına yönələn xüsusi hesablaşma göstəriciləri metodundan fərqli olaraq, stereotiplər metodu iqtisadi göstəricilərdə elə kriminalistik əlaqələr axtarır ki, bu əlaqələr göstəricilərin məzmun dəyişmələrində öz əkslərini tapırlar. Buna görə də stereotiplər metodunun tətbiqində kriminalistik təsəvvürlərin hakim rola malik olduğu hamılıqla təsdiqlənir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bu əlaqələr cinayət hadisəsinin həm müəssisənin təsərrüfat fəaliyyəti ilə, həm də onu əhatə edən hadisə və proseslə qarşılıqlı əlaqəsini əks etdirirlər.

Qeyd etmək lazımdır ki, cinayət hadisəsinin müəssisənin təsərrüfat fəaliyyəti ilə, həm də onu əhatə edən hadisə və proseslə qarşılıqlı əlaqəsini əks etdirilənlərin aşkar olunması cinayət faktının mövcud olmasına dair artıq heç bir şübhə yeri qoymur [1, s. 117-119]. Lakin bu əlaqələrin özlərinin mövcud olması həmişə müəyyən ehtimallarla bağlı olur. Onların təzahür etməsinin ehtimallığını aşağıdakı qaydada izah edə bilərik. Belə məzmunlu izah vasitəsi ilə həm də göstərilən qarşılıqlı təsirə dair iqtisadi və kriminalistik təsəvvürlər arasında dəqiq sərhədin müəyyən edilməsi imkanına diqqət yetirəcəyik.

Belə ki, müəssisə və təşkilatların iqtisadi fəaliyyətini ümumi sxemlər üzrə təhlil edərkən istehsalın ahəngliyi (ritmikliyi) əsas diqqət mərkəzində olur. İstehsalın ahəngliyini müəyyən etmək məqsədilə, məhsul buraxılışına (xidmətlər göstərilməsinə) dair bütövlükdə hesabat dövrü (ay, kvartal) üzrə mövcud olan məlumatlar bu dövr daxilində mümkün qədər daha qısa zaman kəsiklərində qruplaşdırılır. Məhsul buraxılışının və satışının ay ərzində ongünlüklər üzrə və ya

rüb içərisində aylar üzrə qeyri-bərabər olması istehsalın qeyri-sabitliyinə, daha doğrusu, ayrı-ayrı zaman kəsikləri üzrə pis təşkil olunduğuna dəlalət edir. Belə hallar, yəni müəyyən dövrlərdə istehsal ahənginin pozulması cinayət hadisəsinin nəticəsi ola bilər. Məsələn, məhsul istehsalının onun maya dəyərinin və satışının həcminə dair hesabatın təhrif olunması nəticəsində əmələ gələn uyğunsuzluqların aşkar edilməsi və s. Lakin təhlilin göstərilən forması müəssisənin təsərrüfat fəaliyyətinin əsas xüsusiyyətlərinə söykənir, cinayətin bilavasitə aşkar edilməsi məqsədi daşımır. Başqa sözlə, onun əsas vəzifəsi həm də istehsalı səmərəliləşdirmək imkanında olan ehtiyatların aşkar edilməsindən ibarətdir. Bu zaman hər hansı cinayət əlamətinin aşkar edilməsi heç də onun bu məqsədlə tətbiqini göstərmir.

İndi istehsal ahəngi göstəricisi üçün əsas kimi müəssisənin təsərrüfat fəaliyyətini deyil, cinayət hadisəsinin xüsusiyyətlərini götürək. Burada artıq başqa təhlil mexanizmi istifadə olunur, ayrı-ayrı göstəricilər, o cümlədən hətta məhsul buraxılışı, satışı göstəricisi hesabat dövrü üzrə deyil, başqa xüsusi əlamətlərə istinadən seçilən zaman kəsikləri üzrə qruplaşdırılır.

Stereotiplər metodu məhz bu cür əlaqələrin aşkarlanmasına yönəlmişdir. O, kriminalistika elminin predmetini təşkil edən qanunauyğunluqlara əsaslanır. Bu qanunauyğunluqlardan ən birincisi ondan ibarətdir ki, cinayətin törədilməsinin konkret üsulu cinayətin törədildiyi mühitin xüsusiyyətləri ilə diqtə olunur, yəni həmin mühitin məhsulu kimi çıxış edir və mühitlə onun imkan verdiyi belə üsullar arasındakı əlaqə həmişə cinayətin dəfələrlə törədilməsinə zəmin yaradır [2, s. 207-211]. Cinayət hadisəsinin göstərdiyi təsirlərin təsərrüfat fəaliyyətinə dair iqtisadi göstəricilərdə kriminalistik əlaqələr formasında meydana çıxması da qanunauyğunluqdur. İqtisadi göstəricilər arasındakı məhz həmin əlaqələr «stereotip» termini ilə ifadə olunur. Stereotiplər metodu belə əlaqələrin aşkarlanması üçün həm cinayət əlamətlərinin ilkin axtarışlarında, həm də cinayət işinin istintaqı zamanı sübutların toplanmasında, tədqiqində və qiymətləndirilməsində xüsusi üsul və vasitə kimi müvəffəqiyyətlə istifadə olunur.

Əlaqələrin kriminal formalara düşməsi o deməkdeyildir ki, təsərrüfat fəaliyyəti sistemlidir, mütəşəkkildir, formayaradıcı xüsusiyyətlərə malikdir, əksinə bu, cinayətin hazırlanmasına, törədilməsinə və ört-basdır edilməsinə yönəlmiş hərəkətlərin mütəşəkkilliyini və sistemliliyini göstərir. Cinayətkarlar həmişə təsərrüfat sistemində zəif cəhətlər axtarırlar. Bu cür zəif yerləri olmayan sistem yaratmaq adi təsərrüfat imkanları daxilində qətiyyən mümkün deyildir. Buna görə də iqtisadi cinayətkarlıqla mübarizə deyilən bir anlayış daim mövcuddur və o, inkişaf sürətinə görə həmişə cinayətkar üsulların inkişafından geri qalır. İqtisadi təhlilçilərin məqsədi, kriminalistlərdə olduğu kimi, cinayətkarlığın kökünü kəsmək yox, onun buraxdığı izləri konkret məntiqi-riyazi üsulların köməyi ilə aşkar etməkdir.

Nəzərdən keçirdiyimiz hər iki üsul kriminalistlər tərəfindən geniş istifadə olunur. Bu onu göstərir ki, iqtisadi təhlil nəinki öz fəaliyyət dairəsində hansısa fərdi metodikaları yaratmağa qadirdir, o həm də iqtisadi fəaliyyətlə əlaqədar cinayətlərin tədqiqində kriminalistik elmlərə öz xüsusi bilikləri sayəsində mühüm nəzəri yardım göstərir. Onun yaratdığı üsullar öz riyazi və məntiqi əsaslarına görə iqtisadi qanunauyğunluqlarla sıx vəhdət təşkil edir. Bu üsullar ayrı-ayrı spesifik halların tədqiqi üçün istənilən formada deformasiya oluna bilirlər. Qeyd edək ki, xüsusi hesablaşma göstəriciləri metodu kimi stereotiplər metodu da ayrı-ayrı xüsusi üsulları özündə birləşdirir. Onlardan hər biri konkret növ cinayət üsulunu aşkarlamağa yönəlmişdir.

Cinayət əməllərinin müxtəlifliyini əks etdirən göstəricilərin stereotipi bizim üçün yenidir və onu aşağıdakı misalın nümunəsində izah edək.

Bir çox satış müəssisələrində inventarlaşdırmanın aparılma dövriliyi ilə mal ehtiyatları göstəricisinin dəyişməsi arasında səciyyəvi əlaqə müşahidə olunur. Nəzərdən keçirilən stereotip belə hallarda bütün cinayət əməllərinin hamısı üçün xarakterik olan əlamətləri aşkar etmək məqsədi daşıyır. Məsələnin konkret mahiyyətinə nəzər yetirək.

Maddi məsul şəxsin material qiymətlilərini talaması səbəbindən, onun mal hesabatlarında göstərdiyi qalıqlar faktiki mövcud olanlara uyğun gəlmir. Talama miqyası genişləndikcə, inventarlaşdırma dövrləri arasında limitdən artıq mal qalıqları əmələ gəlməyə başlayır. İnventarlaşdırma aparılan vaxt isə cinayətkar müəyyən şəxslərlə gizlicə sövdələşir və malların guya başqa pərakəndə satış müəssisəsinə (həmin şəxslərin aparıcı işlərdə olduğu müəssisələrə) verilməsini təsdiqləyən saxta sənədlər vasitəsilə çatışmazlığı ört-basdır edir. İnventarlaşdırma başa çatdıqdan sonra müvafiq, lakin yenə malsız mədaxil qaimələri tərtib olunur və mal qalığı mağazanın hesabatında saxtakarlıqla artırılır.

Beləliklə, eyni bir göstəricinin (mal qalığının) məzmununa müxtəlif cinayət əməlləri təsir göstərir. Baxılan stereotipin qurulmasında məhz bu müxtəliflik istifadə olunmuşdur. Belə cinayətlərin açılması üçün müəssisələr arasındakı qarışıqlığı hesablaşmaların göstəricilərini müqayisə etmək daha effektli nəticə verir.

Baxılan misala oxşar olan praktiki hallarda, gizlədilən çatışmazlıqların məbləğinin artmasına səbəb olan cinayət əməlləri ilk baxışdan həmin göstəricinin əhəmiyyəti barədə şişirdilmiş təsəvvür doğurur və belə bir fikir yaranır ki, guya inventarlaşdırma dövrləri arasında normativdən artıq ehtiyatlar istənilən anda sabitdirlər. İnventarlaşdırma dövründə çatışmazlığın gizlədilməsi üzrə hərəkətlər bu göstəricinin mənasını süni olaraq azaldır. Beləliklə, qalıq miqdarlarının dəyişməsi və inventarlaşdırma dövrləri arasında aşkar əlaqə müşahidə olunur.

Belə əlaqələr baxılan stereotipin talamaların aşkarlanmasında tətbiq olunması nəticəsində dəfələrlə aşkar olunmuş və onun effektivliyinə təcrübi inam yaratmışdır.

İqtisadi göstəricilərin xarici əlaqələrinin stereotipləri bir neçə iqtisadi göstəricinin eyni zamanda tədqiq olunmasına əsaslanır. Burada stereotip – cinayət əməllərinin müəyyən üsulunun xüsusiyyətlərini əks etdirən iki və ya daha çox göstəricinin məzmun dəyişmələri arasındakı əlaqədir. Üsulların səmərəliliyinin istifadə zamanı meydana çıxan cinayət hadisəsinin elə göstəricilərə təsiri ilə səciyyələnir ki, onlar adi təsərrüfat fəaliyyəti şəraitində qarşılıqlı əlaqə vəziyyətində heç vaxt rast gəlinmir [4, s. 212-214].

Yalnız təhlil materialları əsasında, yəni əlavə yoxlama aparmadan cinayət tərkiblərinin mövcudluğu barədə birmənalı nəticələr çıxarmaq düzgün hesab olunmur. Daha doğrusu, uçot məlumatlarının ümumi tədqiqat üsullarında olduğu kimi, iqtisadi göstəricilərin xüsusi tədqiqat üsulları da yalnız cinayət faktını aşkara çıxarmağa kömək edir və heç vaxt cinayət işi üzrə sübutlar toplanmasının yeganə üsulu kimi çıxış etmir. Bu üsulların cinayət işinin başlanmasından əvvəl ümumi təftişlərin aparılmasında, yaxud cinayət işi başlandıqdan sonra müstəntiq tərəfindən təyin olunan ekspertizanın aparılması isə tamamilə başqa məsələdir.

Cinayət hadisəsi qarşılıqlı əlaqədə olan iqtisadi göstəricilərin məzmununun dəyişməsinə təsir göstərirsə, bu zaman stereotiplər metodunun tətbiqi az effektiv olacaqdır. Həmin hallarda bir neçə iqtisadi göstəricinin dəyişmə dinamikasında müşahidə olunan uyğunluq həm cinayət hadisəsi ilə, həm də adi təsərrüfat amilləri ilə izah oluna bilər. Belə hallarda xüsusi hesablaşma göstəriciləri metodunun köməyi ilə cinayət olmayan digər iqtisadi amillərin təsiri kənarlaşdırılır və nəticə etibarilə iqtisadi göstəricinin çoxmənalı xarakteri aradan qaldırılır.

Malların talanması ilə əlaqədar bu müəssisələrdə yaranan mal çatışmazlığının inventarlaşdırma dövrləri arasında qeyri-real mal qalıqlarını uçotda göstərmək yolu ilə necə ört-basdır edildiyini izah etmişdik. Həmin misalda göstərilmiş stereotip, yəni inventarlaşdırma dövrü ərzində mal qalıqlarının durmadan azalması burada da effektivdir. İndi biz onu inventarlaşdırma dövründə malsız məxaric qaimələrindən istifadə yolu ilə çatışmazlıqların gizlədilməsinə tətbiq edirik. Lakin burada da məsələnin bir zəif cəhəti var. Belə ki, inventarlaşdırma dövrü ərzindəki çatışmazlıqlar faktiki mövcud olmayan malları inventarlaşdırma siyahısına salmaqla ört-basdır edilirsə, göstərilən metod heç bir effekt verməyəcək. Çünki onun səmərəli olması üçün malsız qaimələr məhz faktiki mövcud olan malların adına yazılmalıdır [5, s. 105-107].

Beləliklə, bu yolla gizlədilmiş çatışmazlığı aşkar etmək üçün başqa metodlar tətbiq etmək məcburiyyətində qalırıq. Bu metodu seçmək üçün cinayətkarlığın strukturuna xas olan adi bir qanunauyğunluqdan istifadə edirik. Belə ki, cinayət əməlini təşkil edən müxtəlif hərəkətlər belə hallarda eyni vaxtda iki iqtisadi göstəriciyə təsir göstərir. Birincisi, müəssisənin gəlirindən pul vəsaitlərinin götürülməsi mal dövriyyəsinin həcmini azaldır (çatışmazlığın mövcud mal ehtiyatları adı altında pərdələnməsi də eyni qaydada təsir göstərir). İkincisi, çatışmazlığın durmadan artması normativdən artıq ehtiyatların tədricən artmasına səbəb olur. Nəticə isə belədir: mal kütləsinin normativdən artıq ehtiyatlarının artma meyli və mal dövriyyəsi həcminin azalması kəmiyyət dinamikası üzrə üst-üstə düşür. Bu uyğunluq vəziyyətin kriminallığı baxımından stereotip hesab olunur. Onu iqtisadi baxımdan da tamamən izah etmək mümkündür.

Qeyd etmək lazımdır ki, iqtisadi cinayətlərin istintaqı zamanı yaranan çətinliklər əsasən hüquq mühafizə orqanlarının işçilərinin mühasibat uçotu, təftiş və nəzarət, iqtisadi təhlil, sənədli təhlil və iqtisadi ekspertizaların təyin edilməsi və aparılması metodlarının və iqtisadi biliklərin lazımi qədər mənimsəməmələri ilə əlaqədardır.

**İstifadə edilmiş mənbələr:**

1. Абрютина М. С, Грачев А. В. Анализ финансово-экономической деятельности предприятия: Учебно-практическое пособие. – М.: издательство «Дело и сервис», – 1998. – 256 с.

2. Толкаченко А. А., Амаглобели и др. Судебная бухгалтерия: учебное пособие для студентов вузов, обучающихся по специальностям «Юриспруденция», «Бухгалтерский учёт, анализ и аудит. – 3-е изд., перераб. и доп. - М.: ЮНИТИ-ДАНА», – 2009-223 с.

3. Толкаченко А. А., Амаглобели и др. Судебная бухгалтерия: учебное пособие для студентов вузов, обучающихся по специальностям «Юриспруденция», «Бухгалтерский учёт, анализ и аудит. – 4-е изд., перераб. и доп. – М.: ЮНИТИ-ДАНА», – 2010-231 с.

4. Сорокотягин И. Н., Безукладникова Л.К., Сорокотягина Д. А., Судебная бухгалтерия. Учебник. 2 издание. – М.: Юрайт, – 2016. – 287 с.

5. Сорокотягин И. Н. Судебная бухгалтерия. Учебник. – М.: Юрайт, – 2023. – 285 с.

**Гусейнов Гардаш Саядхан оглу**

## ИСПОЛЬЗОВАНИЕ МЕТОДА СТЕРЕОТИПОВ ЭКОНОМИЧЕСКОГО АНАЛИЗА В ОБНАРУЖЕНИИ ЭКОНОМИЧЕСКИХ ПРЕСТУПЛЕНИЙ

**РЕЗЮМЕ**

В работе исследованы пути применения методов стереотипов экономического анализа для обнаружения преступлений в сфере экономики и определены способы использования экономического анализа в выявлении и расследовании экономических преступлений.

**Huseynov Qardash Sayadkhan**

## THE USE OF THE STEREOTYPE METHOD OF ECONOMIC ANALYSIS IN THE DETECTION OF ECONOMIC CRIMES

**SUMMARY**

The paper investigates the ways of applying the methods of stereotypes of economic analysis to detect crimes in the field of economics and defines the ways of using economic analysis in the detection and investigation of economic crimes.

**Redaksiyaya daxilolma tarixi: 11.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: göndərilməyib**
**Çapa qəbul olunma tarixi: 14.02.2024**